

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 71 (23.483)

14 may 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Videoqəbulda çıxış edən Prezident İlham Əliyev deyib:

– Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu, sizə göstərilən böyük etimaddır. Bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız, eyni zamanda onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait yaradılıbdır və gənclər məsul vəzifələrə təyin edilirlər.

Dövlətimizin başçısı Kəlbəcərin füsunkar təbiətinin, gözəl meşələrinin, dağlarının, çaylarının, tarixi abidələrinin Azərbaycan xalqının milli sərvəti olduğunu vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, yeni icra başçısı gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük qayğı ilə yanaşmalıdır. Çünki dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Bu, 2003-cü ildən etibarən əsas xətt kimi davam edir.

Azər Qocayev Prezidentə gənclərə göstərdiyi dəstəyə və böyük etimada görə dərin təşəkkürünü bildirib, yüksək etimadı doğruldacağına söz verib.

“İxrac ili” – 2020

## “İxrac ili” əhəmiyyətli uğurları ilə yadda qalacaq

***Müstəqillik illərindən başlayaraq ölkəmizdə baş verən dinamik sosial-iqtisadi inkişaf qlobal səviyyədə rəğbətlə qarşılanır. Bunun nəticəsidir ki, hər il Azərbaycanın adı xarici siyasət və beynəlxalq əlaqələr baxımından reytinq sıralamalarında qabaqcıl yerlərdə təqdim edilir. Azərbaycanda mövcud iqtisadi sərbəstlik, özəl bölmənin inkişafı üçün yaradılmış münbit şərait, neft sektorundan asılılığın aradan qaldırılması nəticəsində xarici ticarət əlaqələrinin həcmi və miqyası getdikcə artır.***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da ölkəmizin xarici ticarət əlaqələrinə mühüm töhfələr verir. Böyük İpək Yolu üzərində yerləşən qədim Naxçıvan tarixboyu mühüm ticarət əlaqələrinə malik olub. Diyarımız bu gün də bu baxımdan strateji-coğrafi mövqeyini qoruyub saxlamaqdadır. Müstəqillik illərindən başlayaraq bu imkanlardan səmərəli istifadə edilir, zəngin resurs və emal potensialı ixrac imkanlarına çevrilir. Bunun nəticəsidir ki, Naxçıvan idxal regionundan ixracatçı diyara çevrilib. Özü də ölkənin əsas hissəsindən təcrid olunaraq blokada vəziyyətinə düşən bir Naxçıvan. Bir zamanlar xəyal kimi görünən bu imkanlar indi Naxçıvanın beynəlxalq səviyyədə təqdir olunan reallıqlarıdır.



Əsasən, yaxın və qonşu ölkələrlə geniş ticarət əlaqələri olan Naxçıvan artıq dünyanın 12 ölkəsinə məhsul ixrac edir. Bu uğura iqtisadiyyatın şaxələndirilməsi, sənayenin inkişaf etdirilməsi və xammal ehtiyatlarından səmərəli istifadə olunması sayəsində nail olunub. Hər il bu məqsədlə sahibkarlarla görüş keçirilir, mövcud xammal və idxal potensialından səmərəli istifadə edilməsi, istehsal həcminin və çeşidinin artırılması məqsədilə güzəştli kreditlər ayrılır. Görülən işlərin nəticəsidir ki, ötən il sənayeləşmə uğurla davam etdirilib, sahibkarlıq subyektləri tərəfindən 75 istehsal və xidmət sahəsi istifadəyə verilib, 247 iş yeri açılıb. Bütün bunlar isə daxili tələbatın ödənilməsi ilə yanaşı, xarici ticarət dövriyyəsində müsbət saldonun həcminin artmasını da təmin edib. Təkcə bir faktı qeyd etmək yetərlidir ki, Naxçıvanın xarici dövlətlər ilə ticarət əlaqələri 1995-ci ilin səviyyəsini dəfələrlə geridə qoyub. Naxçıvan Muxtar Respublikasında 2019-cu il ərzində aparılmış xarici əməliyyatların həcmi 497 milyon 68 min 600 ABŞ dolları olub. Bu müddət ərzində 425 milyon 539 min 400 ABŞ dolları dəyərində mal ixrac, 71 milyon 529 min 200 ABŞ dolları dəyərində mal isə idxal olunub, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo yaradıb. Bu, özünü 354 milyon 10 min 200 ABŞ dolları həcmində göstərib.

Muxtar respublikada sənaye və istehsal sahələrinin ayrı-ayrı istiqamətləri ilə yanaşı, ailə təsərrüfatlarının yaradılması və inkişafının təmin edilməsi də “Naxçıvan brendi” adı altında məhsul istehsalının artımına mühüm təsir göstərib. “Ailə təsərrüfatları ili” olan 2019-cu ildə bu məsələlərə diqqət artırılıb, 44 mindən çox ailə təsərrüfatı müəyyənləşdirilib. Əsasən keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal edən bu təsərrüfatlarda hasilə gətirilən nemətlərə muxtar respublikamızdan kənarda da böyük maraq var.

Digər tərəfdən muxtar respublikada nəqliyyat infrastrukturunun müasir tələblər əsasında qurulması da beynəlxalq iqtisadi əlaqələrin və ixracatın artmasına müsbət təsir göstərir. Tranzit yükdaşımalarının muxtar respublika ərazisindən keçməsi diyarımızda xarici ticarətin daha da inkişafına təminat yaradır. Bütün bunlar, eyni zamanda Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında əsas ərzaq məhsullarının keyfiyyətinə nəzarət edilməsi mühüm yer tutur. Bu məqsədlə qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir. İxrac əməliyyatlarında tələb olunan




bir sıra sertifikatlar da məhz buradan təmin olunur. Verilən sertifikatlar ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaradır.

Muxtar respublikada “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması da məhsul ixracına mühüm dəstəkdir. Müəssisə “Naxçıvan brendi” adı altında məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılmasına, eyni zamanda xarici ölkələrə ixracın təşkil edilməsinə öz dəstəyini göstərir.

Ekspertlər də Naxçıvan Muxtar Respublikasında istehsal edilən çox sayda məhsulu ixrac baxımından perspektivli hesab edir. Buna görə də marketinq və reklam işinin təşkili də diqqət mərkəzində saxlanılır, “Made in Nakhchivan” məhsulları beynəlxalq sərgilərdə nümayiş etdirilir. Son illər muxtar respublikadan 1200 nəfərdən çox nümayəndə 70-ə yaxın xarici ölkə sahibkarları ilə keçirilmiş 230-dan çox yerli və beynəlxalq əhəmiyyətli sərgi, biznes-forum və konfranslarda iştirak edib.

Azad sahibkarlığa və təşəbbüskarlığa geniş meydan verilməsi diyarımızda yeni, müasir texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsulların istehsalına əlverişli şərait yaradıb. Təsadüfi deyil ki, hazırda Naxçıvanda istehsal olunan məhsullara dünya bazarında maraq artır və bu malları alan ölkələrin sayı getdikcə çoxalır. Elə bunun nəticəsidir ki, son illər ticarət dövriyyəsinin strukturunda mühüm dəyişikliklər baş verir. İxrac olunan məhsullar sırasına nəzər yetirdikdə yeyinti, tikinti, mebel və yüngül sənaye məhsullarının üstünlük təşkil etdiyini görürük. Həm də bu məhsullar rəqabətə davamlıdır. Elə “Azeri Business Award” təşkilat komitəsi və “Business Time” jurnalının birgə təşəbbüsü ilə təşkil edilən mükafatlandırma mərasimində də bunun şahidi olduq. Aparılan təhlillər və müşahidələr nəticəsində “Cahan Holdinq” Açıq Səhmdar Cəmiyyətinin tərkibində olan “Cahan Sənaye Kompleksi”nin “Magna” markası öz məhsullarının keyfiyyət və davamlılığına görə “İlin brendi” mükafatı ilə təltif edilib. Qeyd edək ki, müəssisə PPR plastik boru və əlavə hissələri, qapı-pəncərə sistemləri üçün PVC, saydinq fasad örtükləri, radiator və dam örtüyü sistemləri istehsal edir və ixracını həyata keçirir.

Son illər ixrac potensialının artırılması istiqamətində görülən işləri və əldə olunan nəticələri göz önünə gətirərək tam əminliklə deyə bilərik ki, muxtar respublikada “İxrac ili” elan edilən 2020-ci ildə bu uğurların həcmi daha da artacaq. Cari ilin ötən ilk rübünün nəticələrinə diqqət yetirdikdə də bunun şahidi oluruq. Dövlət Statistika Komitəsindən verilən məlumatda bildirilir ki, 2020-ci ilin yanvar-mart aylarında 70 milyon 998 min 400 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Naxçıvanda istehsal olunan ixracyönümlü məhsulların istehsalında və satışında da mühüm artım müşahidə olunub. Qeyd edilən dövrdə ixracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 53 milyon 530 min 700 ABŞ dolları təşkil edib. Bu artım 3 ay ərzində 36 milyon 63 min ABŞ dolları dəyərində müsbət saldo yaradıb.

*Bir sözlə, ötən dövrdə görülən işlər və əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Naxçıvan “İxrac ili”ni əhəmiyyətli uğurlar ilə başa vuracaq.*

✍ **Gülcamal TAHİROVA**

## Buraxılış mərasimi keçirilib

*Əlahiddə Ümumqoşun Orduda ixtisasdəyişmə və təkmilləşdirmə kurslarının başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Kursları uğurla bitirən zabitlər yeni vəzifələrə təyin olunublar.*



Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov kurslara cəlb edilmiş zabitlərin ixtisaslarına uyğun nəzəri biliklərinin və praktik vərdişlərinin daha da təkmilləşdirildiyini qeyd edib.

Elnur Şəkərov məzunlar adından çıxış edərək kurslarda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcəklərinə və ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklərinə söz verib.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində bu gün ordumuz dünyanın ən güclüləri sırasında yer alır. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsi ordu quruculuğu istiqamətində görülən işlərin məntiqi davamıdır. Ordumuzun uğurlarında və taktiki təlimlərində hərbi qulluqçuların kurslar zamanı qazandıqları bilik, bacarıq və peşəkarlıq öz sözünü deyir. Təbii ki, bütün bunlar da Naxçıvan Muxtar Respublikasında hərb işinə verilən yüksək qiymətin nəticəsidir.

Sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarına çatdırılıb. Əmrlər oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

**Nəriman NƏCƏFOV**

# “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” uğurla icra olunur

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ulu öndərin yolunun uğurla davam etdirilməsi sosial-iqtisadi inkişafın möhkəm təməlini yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sabitlik, inkişaf və yüksək rifah vardır. Sosial-iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi bütün sahələrdə inkişafı təmin etmişdir”.***

Şübhəsiz ki, qazanılan uğurların əsasında dayanan faktorlardan biri də qəbul olunan dövlət proqramlarının uğurla icra edilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” iqtisadiyyatın bir çox sahələrini əhatə etməklə muxtar respublikanın hərtərəfli inkişafına yönəldilmişdir.

Dövlət proqramında yerli iqtisadi potensialın gücləndirilməsi, əsas ərzaq məhsulları ilə təminatın yaxşılaşdırılması, ekoloji təmiz məhsul istehsalının inkişafının dəstəklənməsi, sahibkarlığın inkişafının gücləndirilməsi, məşğulluğun artırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi kimi çox sayda istiqamətlər müəyyənləşdirilmiş, 98 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. Həmin tapşırıqların icrası 2020-ci ilin yanvar-mart aylarında diqqətdə saxlanılmış, sahibkarlıq subyektlərinin ixrac fəaliyyətinin genişləndirilməsi istiqamətində işlər görülmüş, muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində Bakı və Gəncə şəhərlərində yerləşən “Naxçıvan məhsulları” mağazalar şəbəkəsinə ailə təsərrüfatı məhsullarının göndərilməsi və 4 ixrac əməliyyatı üzrə 7 min manatdan çox məbləğdə ixrac təşviqinin ödənilməsi təmin edilmişdir. Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən kiçik və orta sahibkarlara 4 milyon 853 min 500 manat həcmində kreditlər verilmişdir. Özəl investisiya fəallığının artırılması və investisiyaların cəlb edilməsi istiqamətində təşviq tədbirləri davam etdirilmiş, 1 layihə üzrə 92 min 911 manat dəyərində təsdiqedici sənəd verilmişdir. Müxtəlif ölkələrin nümayəndələri ilə keçirilmiş 3 beynəlxalq tədbirdə muxtar respublikada fəaliyyət göstərən 4 sahibkarlıq subyektinin 17 nümayəndəsinin iştirakı təmin olunmuşdur.



2020-ci ildə nəqliyyat infrastrukturu obyektlərinin adlarını, daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən lövhələrin sənaye üsulu ilə hazırlanmasının davam etdirilməsi məqsədilə 20 obyektdə quraşdırılacaq ünvan lövhələrinin, giriş nömrə nişanlarının sayı müəyyənləşdirilmiş, torpaqların kadastr uçotu informasiya sisteminin yaradılması istiqamətində 3 min 458 daşınmaz əmlak obyekti plana alınmışdır. Naxçıvan Beynəlxalq Hava Limanında uzunluğu 3300, eni 60 metr, ümumi sahəsi 250 min kvadratmetr olan uçuş-enmə zolağının tikintisi başa çatdırılmışdır. Geniştutumlu istənilən hava gəmilərinin qəbuluna imkan verən yeni zolağa fevral ayında test-sınaq məqsədilə ilk hava gəmisi endirilmişdir.

Muxtar respublikamızda gömrük orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət proqramına uyğun olaraq yanvar-mart aylarında gömrük orqanlarının maddi-texniki bazasının gücləndirilməsi davam etdirilmiş, Şahtaxtı gömrük-keçid məntəqəsində 1, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsində 2 rentgen yoxlama-baxış qurğusu quraşdırılmışdır. Pandemiya ilə bağlı Sədərək və Culfa Gömrük idarələrində, ümumilikdə, 2 stasionartipli dezinfeksiya bariyeri, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsində və Şahtaxtı Gömrük İdarəsində 2 məsafədən istilikölçən termovizor quraşdırılmış, vətəndaşların Naxçıvan Muxtar Respublikasına daxil olan zaman hərarətlərinin ölçülməsi məqsədilə 11 ədəd əl üçün məsafədən termometr alınmışdır.

İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı aparılan iqtisadi siyasətin əsas prioritetlərindəndir. Dövlət proqramında muxtar respublikada sənaye məhəllələrinin və yeni sənaye müəssisələrinin yaradılması ilə bağlı nəzərdə tutulan işlər ötən dövrdə davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə yaradılmasına başlanılan Şərur Sənaye Məhəlləsi muxtar respublikada sənaye sahəsində mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsinə mühüm töhfə verəcəkdir. Sənaye məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulmuşdur. Yanvar-mart aylarında 1 korpusun tikintisi davam etdirilmişdir. Bununla yanaşı, Naxçıvan şəhərində qaynaq çubuğu, boya, Babək rayonunda plastik səbət istehsalı sahələrinin yaradılması, Kəngərli rayonunda mebel istehsalı sahəsinin genişləndirilməsi başa çatdırılmış, Naxçıvan şəhərində “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan bölməsinin, “Gənclər Yaşayış Kompleksi”nin qurulması, yun və təbii boyaq bitkilərinin tədarükü məntəqəsinin, odun kömürü istehsalı sahəsinin yaradılması, plastik kapsul və qapaq, unlu-qənnadı məmulatların istehsalı sahəsinin genişləndirilməsi, Babək rayonunda tullantı yağların yenidən emalı, bərk sürtkü yağlarının istehsalı sahəsinin yaradılması, Kəngərli rayonunda yeni duz şaxtasının açılması, Şahbuz rayonunda spirtli içki, yeni mineral sular istehsalı sahəsinin yaradılması davam etdirilmiş, 1 istehsal sahəsinin fəaliyyətinin bərpasına nail olunmuşdur.



Kənd təsərrüfatı iqtisadi inkişafın əsas hərəkətverici sahəsi olmaqla yanaşı, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca şərtdir. Ona görə də muxtar respublikada bu istiqamətdə kompleks tədbirlər görülür, mütərəqqi metodlar tətbiq edilir, meyvəçiliyin inkişafına diqqət artırılır. Qəbul olunmuş dövlət proqramlarında bu məsələnin xüsusilə diqqətdə saxlanılması qarşıya yeni vəzifələr qoyur. Ötən dövrdə muxtar respublika ərazisində 44,4 hektar sahədə yeni meyvə bağları salınmış, 47 min 176 müxtəlif növ meyvə tingləri, 6 min 675 üzüm kolu əkilmişdir. Babək rayonunda 1 hektar ərazidə salınmış üzüm bağının fəaliyyətinin stimullaşdırılması, Culfa rayonunda 1 tingçilik sahəsinin yaradılması başa çatdırılmış, Şərur, Babək və Şahbuz rayonlarının hər birində 1 bağçılıq təsərrüfatının yaradılması, Culfa rayonunda bağçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Süni Mayalanma Mərkəzinin yaradılması davam etdirilmişdir.

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 137 müxtəlif texnika və texnoloji avadanlıq alınmışdır. Muxtar respublikanın kəndlərində kiçikhəcmli emal müəssisələrinin yaradılması məqsədilə 7 layihəyə, ümumilikdə, 58 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Kənd təsərrüfatı məhsullarının markalanması məqsədilə 7 ailə təsərrüfatına müvafiq köməklik göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, ***“Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir”.*** Son illərdə muxtar respublikada yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində irimiqyaslı layihələr icra olunmaqdadır. Bu layihələrin icrası nəticəsində tikilən müasir avtomobil yolları əhalinin rahat hərəkətini təmin etməklə yanaşı, həm də məhsulun vaxtında daşınmasına şərait yaradır. 2020-ci ilin ötən dövründə muxtar respublikamızda 11 kilometr avtomobil yolları yenidən qurularaq istifadəyə verilmiş, Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması davam etdirilmişdir.




Müasir içməli su və kanalizasiya sistemlərinin qurulması insan amilinə verilən dəyərin daha bir ifadəsidir. Muxtar respublikanın yaşayış məntəqələrində bu tədbirlərin görülməsi sakinlərin rahat yaşayışına hesablanmışdır. Dövlət proqramında bu istiqamətdə vəzifələrin müəyyənləşdirilməsi məsuliyyəti daha da artırır. Ötən müddətdə yaşayış məntəqələrində 32 kilometr su, 8 kilometr kanalizasiya xətti çəkilmiş, 342 ev birləşməsi aparılmış və sayğac quraşdırılmışdır.

Muxtar respublikanın mövcud hidroenerji potensialından və Günəş enerjisindən istifadə etməklə ekoloji təmiz və iqtisadi cəhətdən daha səmərəli elektrik stansiyalarının tikintisi enerji təhlükəsizliyinin təmin olunmasında əsas amildir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikanın enerji tələbatının 60 faizdən çoxu bərpa olunan enerji mənbələri hesabına ödənilir. Birinci rübdə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması məqsədilə Kəngərli rayonunun Qabıllı kəndində 3 meqavat gücündə Günəş Elektrik Stansiyasının, Ordubad rayonunda 36 meqavat gücündə Su Elektrik Stansiyasının tikintisi və Naxçıvan Günəş Elektrik Stansiyasının istehsal gücünün artırılması davam etdirilmişdir. Dövlət proqramının sığınacaqların və mülki müdafiənin digər obyektlərinin yaradılması ilə bağlı bəndinin icrası məqsədilə də işlər görülmüş, Şərur və Culfa şəhərlərində ictimai yaşayış binalarının zirzəmilərində təmir işlərinə başlanılmışdır.

Dəmir yolu sərnişin və yüklərin daşınmasında ən səmərəli nəqliyyat növüdür. Çünki yüklərin həcminə, sərnişinlərin sayına, maliyyə xərclərinin münasibliyinə, eyni zamanda daha təhlükəsiz daşınmalara görə dəmir yolu nəqliyyatının üstünlükləri çoxdur. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrası dəmir yolunun inkişafı üçün də əlverişli imkanlar yaradır. Görülən işlərin davamı olaraq “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Culfa Lokomotiv Deposunda lokomotivlər texniki baxışdan keçirilmiş, cari təmir işləri aparılmış, yararsız vəziyyətdə olan 625 ağac şpal təzə ağac şpallarla əvəz edilmiş, stansiyalarda 16 yol dəyişənin izolyasiya dəsti dəyişdirilmiş və 28 izolyasiya calaqları yenisi ilə əvəz olunmuşdur.

Müasir mərhələdə informasiya-kommunikasiya texnologiyaları sosial-iqtisadi sistemin bütün sahələrinə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Muxtar respublikamızda da sabit telefon şəbəkəsinin yeni nəsil telekommunikasiya sisteminə keçirilməsi ilə bağlı tədbirlər uğurla davam etdirilir. Bu tədbirlərin həyata keçirilməsində “Evədək optika” layihəsinin icrası xüsusi əhəmiyyət kəsb edir. Layihə çərçivəsində 2020-ci ilin ötən dövründə 7 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmiş və GPON avadanlığı quraşdırılmışdır.

Dövlət proqramında nəzərdə tutulan infrastruktur obyektlərinin yaradılması, mədəniyyət obyektlərinin əsaslı təmiri, tikintisi, bərpası və konservasiyasının davam etdirilməsi ilə bağlı tapşırıqlar da mühüm əhəmiyyət kəsb edir. Məhz bu tapşırıqların icrası istiqamətində birinci rübdə xeyli əsaslı işlər görülmüş, Ordubad rayonunun Vənənd kəndində baytar məntəqəsi və rabitə evi istifadəyə verilmiş, 432 şagird yerlik məktəb binasının yenidən qurulması, musiqi məktəbinin, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Babək Rayon Şöbəsinin inzibati binasının, Darkənddə su dəyirmanının, Dəstə kəndində Radio və Televiziya Ötürücü Stansiyanın, Naxçıvan Neft Məhsulları Təminatı Müəssisəsinin Culfa rayonunda yanacaqdoldurma stansiyasının tikintisi, Naxçıvan şəhərində Yusif Küseyir oğlu türbəsinin və Buzxana abidəsinin bərpası başa çatdırılmışdır.

Əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsi və rifahının yaxşılaşdırılması hər bir ölkə üçün ən vacib məsələdir. Xüsusilə qayğıya ehtiyacı olan vətəndaşların diqqətdə saxlanılması, onların problemlərinin həlli sosial siyasətin əsasını təşkil edir. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na müvafiq olaraq aztəminatlı ailələrin, sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də mühüm işlər görülməkdədir. Belə ki, 2020-ci ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə, ümumilikdə, 6 ailəyə mənzillər təqdim edilmiş, 65 aztəminatlı ailənin özünüməşğulluğu təmin olunmuş, sağlamlıq imkanları məhdud 10 nəfər müvafiq iş yerlərinə göndərilmiş, ünvanlı dövlət sosial yardımı almaq üçün əhalinin sosial müdafiəsi mərkəzlərinə müraciət edən 10 nəfər işlə təmin edilmişdir.

İqtisadiyyatın dinamik inkişafının səhiyyə sahəsinə də böyük təsiri muxtar respublikada əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Son 25 ildə Naxçıvan səhiyyəsi böyük inkişaf yolu keçmişdir. Bu gün muxtar respublikada əhalinin sağlamlığının qorunması diqqət mərkəzində saxlanılır. Aparılan quruculuq işləri səhiyyə infrastrukturunu daha da müasirləşdirmişdir. Dövlət proqramına uyğun olaraq bu ilin ötən dövründə Naxçıvan Qarnizonunun Hərbi Xəstəxanasının, “Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsin inzibati binasının, “Darıdağ Arsenli Su Müalicə” publik hüquqi şəxsin binasının, Şahbuz rayonunun Ağbulaq kəndində həkim ambulatoriyasının tikintisi, “Darıdağ” Termal Otelin, Ordubad Rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Naxçıvan şəhər xəstəxanalarında, Şərur rayonunun Aralıq, Babək rayonunun Nehrəm, Cəhri kənd xəstəxanalarında, Culfa Rayon Mərkəzi Xəstəxanasında təmir işləri davam etdirilmişdir.

***Dövlət proqramında nəzərdə tutulan tədbirlər sırasında təhsil quruculuğu xüsusi yer tutur. Ona görə də cari ilin ötən dövründə də bu sahədə silsilə işlər görülmüşdür. Belə ki, Şərur rayonunun Qarabürc, Muğancıq-Mehrab, Babək rayonunun Nəcəfəlidizə kəndlərində məktəb binalarının, Culfa Rayon Təhsil Şöbəsi üçün inzibati binanın tikintisi, Ordubad şəhərində 1 nömrəli və Nüsnüs, Şərur rayonunun Şəhriyar, Culfa rayonunun Camaldın kəndlərində məktəb binalarının yenidən qurulması, Naxçıvan Dövlət Universitetinin Magistratura Mərkəzinin, Memarlıq və mühəndislik, Konservatoriya, Beynəlxalq münasibətlər və xarici dillər, Sosial idarəetmə və hüquq fakültələrinin binalarında, Naxçıvan Regional Peşə Tədris Mərkəzinin inzibati binasında təmir işləri davam etdirilmişdir.***

***Dövlət proqramının 2020-ci ildə uğurla həyata keçirilməsi qeyd edilən tapşırıqların icrasına nail olunmasında ən mühüm vasitə olacaqdır.***

**“Şərq qapısı”**

## Azərbaycanın ən böyük buzxana abidəsi

# Naxçıvan şəhər buzxanası



***"Hər bir yay fəsli küçələrdə arabalarda buz sallarını görəndə, bir tərəfdən o buzu şampanskilərə və ləzzətli marojnalara işlədən xoşbəxtlər gözümün qabağına gəlir..." Yəqin ki, görkəmli dramaturq Cəlil Məmmədquluzadənin "Buz" hekayəsindəki bu fikirlər çoxlarına tanışdır. Böyük ədibin uşaqlıq dövrünün təəssüratları altında qələmə aldığı bu hekayədən bəlli olur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvan şəhərinin küçə və meydanlarında, bazarlarda buz satışı təşkil olunarmış. Əhali bu cür buz parçalarından sərinləmək üçün soyuq içkilərin hazırlanmasında, müxtəlif ərzaqların saxlanılmasında, təbabətdə geniş istifadə edərmiş.***

Naxçıvanın kəhriz və bulaqlarından göz yaşı kimi çağlayaraq axan sudan hazırlanan bu cür təbii buz parçaları yayın qızmar günlərində hər kəsə xoş gələrmiş. Belə təbii buzlar isə yerli buzxanalarda hazırlanarmış. Buzu hazırlamaq üçün binaya çəkilmiş kəhriz suyu qış aylarında zirzəmiyə yığılaraq buz halına salınar, əriməməsi üçün onların aralarına saman tökülərmiş. Bu işlə məşğul olan adamlar yay aylarında ayaqlarına keçə bağlayaraq buzu buradan çıxarar və satışını təşkil edərmişlər. Bəzi tədqiqatçılara görə isə axan su buzxana yaxınlığında xüsusi hazırlanmış bir meydançaya yığılaraq dondurular, sonra kəsilən buz parçaları buzxana binasına daşınaraq burada saxlanılarmış. Buna görə də orta əsrlərdən üzübəri Şərq aləmində məscid və hamamları, qala və saray komplekslərı ilə məşhur olan Naxçıvan həm də buzxana binaları ilə tanınmışdır. Hazırda belə buzxanalardan ən böyüyü Naxçıvan şəhər buzxanasıdır.





"Naxçıvan Abidələri Ensiklopediyası"nda bildirilir ki, bu abidə öz profilinə görə ölkəmizdə qeydə alınan ən böyük tikilidir. Yüksək memarlıq həllinə görə binanın Naxçıvan memarlıq məktəbinin inkişaf etdiyi XII-XIV əsrlərdə tikildiyi ehtimal olunur. Uzunluğu 20, eni isə 9 metr olan bu bina ilk baxışdan birmərtəbəli binanı xatırlatsa da, ümumi hündürlüyü 9,6 metrdir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan şəhər buzxanasının səciyyəvi cəhətlərindəndir.

Qeyd edək ki, Naxçıvan şəhər buzxanası ölkə əhəmiyyətli abidədir. Tədqiqatçılara görə, muxtar respublikada mövcud olan bu və digər buzxanaların tikilişindəki oxşar konstruksiyadan o dövrdə Təbriz və Ərdəbildə inşa olunan bazar komplekslərinin örtülü keçidlərində istifadə edilib. Və bu tip abidələr regionda ticarət məqsədilə tikilən obyektlərdir. Buzxanalardan, yuxarıda da qeyd etdiyimiz kimi, əsasən, ərzaq məhsullarının təbii üsulla saxlanılmasında, buz satışında istifadə olunub.

Ancaq ötən əsrin ortalarından sonra elmi-texniki tərəqqinin inkişafı bir çox sahələr kimi, soyuducu sənayesinə də sirayət edib ki, bu da, öz növbəsində, tarixi buzxana binalarından istifadəni arxa plana keçirib. Nə yaxşı ki belə tarixi binalarımız xalqımız tərəfindən qorunub saxlanılıb. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə Naxçıvanda tarixi abidələrə göstərilən dövlət qayğısı buzxana binalarını da əhatə edib. Elə bir neçə gün bundan əvvəl – mayın 5-də Naxçıvan şəhər buzxanasının yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilməsi bunu bir daha təsdiq edir. Yenidənqurma işləri zamanı abidənin divarları izolyasiya edilmiş, bina və mövcud yardımçı otaqlar əsaslı təmir olunmuş, mətbəx və qazanxana tikilmişdir. Buzxananın tarixi görkəminə uyğun mebel və avadanlıqlar qoyulmuş, istilik sistemi quraşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edərək demişdir: ***"Abidələri yaşatmaq xalqın tarixini, mədəniyyətini, dəyərlərini yaşatmaq deməkdir. Bu gün tariximiz təkcə kitablarda deyil, eyni zamanda abidələrdə yaşayır. Xalqımızın neçə əsr bundan əvvəlki təfəkkürünün məhsulu olan abidələri qorumaq, bərpa edərək yaşatmaq, gələcək nəsillərdə tariximiz və qədim mədəniyyətimiz haqqında təsəvvürlər formalaşdırır".***

Ali Məclisin Sədri bəhs olunan abidə haqqında fikirlərini belə ifadə etmişdir: ***"Buzxanalar insan təfəkkürünün məhsuludur. Texnologiyanın olmadığı bir dövrdə xalqımızın yaratdığı buzxanalar insanları isti yay günlərində buzla təmin etmişdir. Bu da Azərbaycan xalqının tarixən nə qədər böyük inkişaf yolu keçdiyini göstərir. Çünki tarixi abidələr hər bir xalqın uzun illər ərzində formalaşdırdığı mədəniyyətin nəticəsində yaranmışdır".***

Qeyd edək ki, buzxana abidəsinin bərpa olunaraq Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin balansına verilməsi və burada "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin fəaliyyəti üçün lazımi şəraitin təmin edilməsi yerli mətbəximizin təbliğinə geniş imkanlar açacaq, yerli və xarici turistlərin marağına səbəb olacaqdır. Naxçıvan şəhər buzxanasından milli mətbəximizin təbliği məqsədilə istifadə olunması muxtar respublikamıza gələn qonaqlara tariximizi və mədəniyyətimizi birlikdə tanıtmağa imkan verəcək.

✍ Səbuhi HƏSƏNOV

***Mövcud vəziyyətlə bağlı olaraq aprel ayında Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və nazirliyin sistemində fəaliyyət göstərən müəssisələr tərəfindən muxtar respublika sakinlərinə onlayn xidmət göstərilmişdir.***

## Muxtar respublika sakinlərinə onlayn xidmət göstərilib

Ötən ay əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlərlə, muzeylərdə olan eksponatlarla bağlı materiallar, ekskursiyalar hazırlanmış, sosial şəbəkələrdə geniş paylaşılmışdır.

Naxçıvan Dövlət Filarmoniyasının "Muğam üçlüyü"nün və "Simli kvartet"inin onlayn konserti, eləcə də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi tərəfindən Nəbi Xəzrinin "Burla Xatun" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın onlayn nümayişi olmuşdur. Bundan əlavə, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının kollektivi də onlayn tamaşaların nümayişi üçün hazırlıq işləri aparmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında" 2020-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının icrası ilə əlaqədar ötən ay tanınmış bəstəkarın əsərlərindən ibarət yeni konsert proqramının Naxçıvan Dövlət Televiziyası vasitəsilə videoçəkilişi həyata keçirilmiş, aparılan çəkilişlər nazirliyin rəsmi vebsaytlarında, "Youtube" videokanalında və sosial şəbəkələrdə geniş şəkildə işıqlandırılmışdır.

Aprel ayında onlayn tədbirlərdə muxtar respublikada fəaliyyət göstərən mədəniyyət müəssisələrində işləyən və təhsil alan gənclərə İslam əxlaqi dəyərlərinin təbliği ilə bağlı mühazirə oxunmuş, milli kinomuzun nadir incilərindən sayılan "Tütək səsi" və dünya kinosu incilərindən Çarli Çaplinin "Uşaq" filmlərinin müzakirəsi keçirilmişdir. "Biz birlikdə güclüyük" ideyası çərçivəsində Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Musiqi Kollecinin musiqiçilərinin ifasında Naxçıvan Dövlət Film Fondu tərəfindən bir sıra sosial videomateriallar hazırlanmışdır.

Muzeylər də ötən ay onlayn fəaliyyət göstərmiş, Naxçıvan Dövlət Tarix Muzeyi və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksindən onlayn ekskursiyalar təşkil edilmişdir.

Aprel ayında sosial şəbəkələr üzərindən 133 uşaq, yeniyetmə və gəncin iştirakı ilə "Evdə qal, sən də yarat" adlı rəsm müsabiqəsi keçirilmiş, müsabiqənin nəticələri nazirliyin internet resurslarında elan olunmuşdur.

Bəhs olunan dövrdə muxtar respublikadakı kitabxanalar tərəfindən 650 oxucuya sifarişləri əsasında evə çatdırma xidməti göstərilmiş, "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olan kitablarla bağlı 141 video və audiomaterial hazırlanmış, həmçinin Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorları və digər mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən şeir və poemalardan parçaların bədii qiraət edildiyi 60-dan çox videomaterial hazırlanaraq sosial şəbəkələrdə nümayiş etdirilmişdir. Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tərəfindən Naxçıvan Musiqi Kollecinin Kitabxana-informasiya ixtisası üzrə təhsil alan tələbələri üçün onlayn təcrübə məşğələləri təşkil edilmişdir. Ölkə kitabxanaları arasında təcrübə mübadiləsi məqsədilə Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası və Bakı Şəhər Xətai Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi arasında onlayn bağlantı olmuşdur.

Ötən ay Mədəniyyət Nazirliyinin tabeliyindəki təhsil müəssisələrində, ümumilikdə, 5 min 667 onlayn dərs keçilmiş, eyni zamanda Naxçıvan Musiqi Kolleci, Naxçıvan Dövlət Uşaq Filarmoniyası və uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri tərəfindən 376 videomaterial hazırlanaraq sosial şəbəkələrdə paylaşılmışdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aprelin 7-dən etibarən fəaliyyət göstərən "Youtube" kanalına 132 videomaterial yerləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır

Aprel ayında muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə, həmçinin dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələr icra olunmuşdur. 3 oktyabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrasını təmin etmək məqsədilə fövqəladə hallar zamanı fəaliyyəti zəruri olan 54 müəssisə və təşkilatın fövqəladə hallara hazırlığı yoxlanılmış, aşkar olunan çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tövsiyələr verilmişdir.

Muxtar respublikada virus infeksiyalarına və yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlərin keçirilməsinə nazirliyin şəxsi heyəti cəlb edilərək Naxçıvan şəhəri, rayon və kənd mərkəzləri, habelə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası və hərbi şəhərciyi, sərhəd və gömrük-keçid məntəqələri, Əlahiddə Ümumqoşun Ordunun hərbi şəhərcikləri və hərbi hissələri, Daxili Qoşunların "Naxçıvan" Əməliyyat Briqadası, hərbi şəhərciyi, Polis məktəbi və Hərbi Lisey dezinfeksiya olunmuşdur.



Hesabat dövründə Əlahiddə Ümumqoşun Orduda keçirilən toplantılarda nazirliyin müvafiq vəzifəli şəxsləri, çöl-səhra şəraitində keçirilən ixtisas məşğələlərində pirotexniklər iştirak etmişdir. Həmçinin ordunun Təlim-Tədris Mərkəzində 6 müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu ixtisasartırma kursunu başa vuraraq müvafiq sertifikatla təmin edilmişdir.

Sənayedə və dağ-mədən sahələrində texniki təhlükəsizliyin təmin olunması məqsədilə 26 təhlükə potensiallı obyektdə yoxlama keçirilmiş, 8 müəssisədə 68 nəfərin iştirakı ilə maarifləndirmə işi aparılmış, 1 müəssisə dövlət reyestrində qeydiyyata alınmış və 3 texnoloji nəqliyyat vasitəsi dövlət qeydiyyatından keçirilmişdir. 18 qurğu texniki təhlükəsizlik sertifikatı ilə təmin edilmiş, 23 texnoloji nəqliyyat vasitəsi texniki baxışdan keçirilmiş, 1 müəssisəyə lisenziya verilmiş, 1 müəssisədə isə əvvəlcədən verilmiş lisenziyanın şərtlərinə əməl olunması yoxlanılmışdır. 10 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin vəziyyəti yoxlanılmış, 2 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmişdir.

Təbii qazdan və elektrik enerjisindən istifadə zamanı məsrəfçiliyin qarşısının alınması və yanğın təhlükəsi yarada biləcək sahələrin ləğv edilməsi məqsədilə yerli icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə 3 min 586 yaşayış evinə baxış keçirilmiş, 51 elektrik və 114 şlanqla çəkilmiş qaz xəttinin yeri dəyişdirilmiş, 8 qazla işləyən nasaz suqızdırıcısının və 151 tezqatlanan tüstü borusunun istismarı dayandırılmışdır. Daşınmaz əmlakın icbari sığortası ilə bağlı müəssisə və təşkilatlarda izahat işləri aparılaraq 29 obyektdə icbari sığorta müqaviləsinin bağlanılması təmin edilmişdir.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən 48 tikinti obyektində işlərin tikinti norma və qaydalarına uyğun aparılmasına nəzarət olunmuş, yeni tikilən 38 obyektin layihə-smeta sənədləri ekspertizadan keçirilmiş, istismara verilmiş 4 obyektin "İstismara hazırlıq aktı" tərtib olunmuşdur. Şərur şəhərində Bayraq Meydanının tikintisi ilə bağlı müəyyən olunmuş sahədən götürülmüş qrunt nümunələrinin fiziki-mexaniki xüsusiyyətləri laboratoriyada araşdırılmış və müvafiq mühəndis-geoloji hesabat hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

Yurdumuzun nemətləri

# Şahbuz dağlarından gələn rayihə

***Hər dəfə şimşək çaxması ilə yağan yaz yağışından sonra dağlarda, çəmənlərdə bitən saysız-hesabsız bitkiləri görəndə öz-özümə fikirləşirəm: Ana təbiət yurdumuzdan heç nəyi əsirgəməyib. Uca Yaradan bu diyarın insanlarına ruzilərini özlərindən əvvəl verib. Bu yurda elə səxavətlə min bir naz-nemət bəxş edib ki, yığıb istifadə etməklə bitmir, tükənmir. Belə isə həm də onların qədrini bilib, artıb çoxalmasının qayğısına qalsaq, bar-bərəkətimiz tükənməz, bu gözəl nemətlər hər zaman süfrələrimizin bəzəyi, canımızın sağlamlığı olar.***



Lap qədim zamanlardan yurdumuzun bərəkətli torpaqlarında bitən vitamin və minerallarla zəngin olan bu bitkilərdən müalicə vasitəsi kimi də istifadə etmişik, cürbəcür yeməklər də hazırlamışıq. Erkən yazda təbiətin qoynundan toplanan müxtəlif növ bitkilər həm də kənd adamının qazanc mənbəyinə çevrilib.

Gözəl diyarımızın bərəkətli naz-nemətlərlə zəngin olan yerlərindən söhbət düşəndə ağıla ilk gələn dağı, düzü can dərmanı sayılan bitkilərlə zəngin olan yer Şahbuz rayonudur. Elə rayonun Aşağı Qışlaq kəndində yaşayan Südabə Məhərrəmova ilə söhbətimiz də dağ kəndinin şəfalı bitkiləri haqqında oldu. Südabə xala deyir: – Elə ki yaz gəldi, şimşək çaxıb təbiətə halallıq verdi, ailə üzvlərimlə birlikdə üz tuturuq kəndimizin dağlarına, düzlərinə hər biri min bir dərdin dərmanı olan bitkilərdən toplamağa. Sübhün saf, təmiz havasında təbiətin qoynunda olmağın özü sağlamlığa çox xeyirlidir. Pencər yığa-yığa təmiz havada qaynayan samovarın, pendirlə, qaymaqla şirin çayın ləzzətini dünyanın heç bir məşhur restoranında tapmaq olmaz.

Südabə xala deyir ki, kəndimizdə bitən bitkilərdən təkcə yaz aylarında yox, ilin hər fəslində yeməklər hazırlayıram. Yazda onları təzə-təzə toplayıb günaşırı bişirirəm. Bu bitkilərin bəziləri var ki, onları qurudub qışa da saxlayıram. Cacıq, çiriş qazayağını isə yaxşıca yuyub azca qaynatdıqdan sonra süzüb, sıxıram. Soyuduqdan sonra kiçik torbalara yığıb dondurucuda saxlayıram. Bundan başqa, cacığı təmizləyib yaxşıca yuduqdan sonra şüşə balona yığır, üstünə qaynar su, hər litrə bir xörək qaşığı duz əlavə edib 10 dəqiqə qaynadıb ağzını qapaqla bağlayıram. Bunu sərin yerdə saxlamaq lazımdır. Müsahibim qış süfrələrinin ləziz dadı çaşır və baldırğan turşusunun hazırlanma qaydasından da danışır:

– Çaşırdan turşu tutmaq üçün onu çeşidləyir, yəni körpə zoğları ayırırıq. Çünki körpə çaşırla nisbətən qalınları bir yerdə qaynatmaq olmaz, əzilər və ya çiy qalar. Qazanda su qaynadır, çaşırı az-az həmin suya tökür, pörtlədir, sonra isti sudan çıxarıb pendir suyu olduqda ona, olmasa ayran çalıb içərisinə tökürük. Pendir suyu, ayran çaşırın rəngini ağardır. Bir neçə saat orada qaldıqdan sonra süzür, yaxşıca yuyuruq. Balonlara yığıb hər kiloqramına bir qaşıq duz, su töküb 10 dəqiqə qaynadıb, üç litrlik balona bir xörək qaşığı sirkə əlavə edib bağlayırıq. Baldırğanı da çeşidləyib, 5 dəqiqə qaynadıb soyuq suya tökür, bir neçə saat saxlayıb, sonra eyni qaydada balonlara yığıb bağlayırıq. Tutmalara tökülən duz iri dənəli olsa, daha yaxşıdır.

Qırxbuğum bitkisi haqqında da söhbət açan xanım deyir:

– Bitki çiy və bişirilmiş halda istifadə edilir. Ondan dovğa, buğlama, aş, kətə, salatlar hazırlanır. Qırxbuğumun düyü ilə bişirilmiş aşı sarımsaqlı qatıqla çox dadlı olur. Bu bitki aprel-may aylarında yığılıb qurudulur və qış üçün tədarük edilir. Qış aylarında ondan umac, səbzi (ət ilə qızartma) bişirilir. Qurudulub un halına salınmış kütləsindən sıyıq hazırlanmasında istifadə olunur. Qırxbuğumlu aş bişirmək üçün onu kiçik hissələrə bölür, düyünü süzür, sonra qazanın dibinə qazmaq qoyur, bir qat düyü, bir qat qırxbuğum yığılır, üzərinə yağ, zəfəran əlavə edilib dəmə qoyulur. Qırxbuğum dərman kimi də istifadə olunur. Bunun üçün bitki çiçəkləyən dövrdə toplanıb, qurudulur. Xalq təbabətində ondan hazırlanmış dəmləmə və cövhərlər mədə-bağırsaq xəstəliklərinin müalicəsində, ağrıkəsici və iltihabgötürücü vasitə kimi istifadə edilir. Yarpaqlarından çıxıq və sınıqlara, çibantipli yaralara təpitmə qoyulur.

Südabə xala min dərdin dərmanı olan, uşqun haqqında deyir ki, bitkinin yığılma dövrü, əsasən, aprel ayının 20-dən may ayının sonunadəkdir. O, cəmi 25-30 gün ərzində yeyilməli olur. Həmin vaxt keçdikdən sonra yeyilən hissəsi – özəyi bərkisə də, yayın ortalarına kimi onun həm çiçəyindən, həm də ətrafında olan yarpaqlarından istifadə etmək olur. Mineral və vitaminlərlə zəngin olan uşqundan şəkər, xərçəng, ürək xəstəliklərində, həzm prosesinin yaxşılaşdırılmasında geniş istifadə olunur. Daha çox susuzluğu yatıran vasitə kimi də yeyilir. Şəkər xəstəliyində yaranan susuzluğun qarşısını alır. Uşqunun yanlarından çıxan hissələrini onun özəyi kimi satanlar da olur, amma onun yeyilməli yeri yarpaqların ortasından çıxan özəyidi. Uşqun banan kimi soyulub yeyildiyindən ona Anadoluda dağ bananı deyirlər. Uşqun dağlarda bitən ən böyük yarpaqlara malik bitkidir. Dadı turşməzə və bir qədər də acıdır. Yığılma vaxtı bitdikdən sonra özəklər daha da böyüyür, azacıq sarı və qızılı rəngə çalan balaca çiçəklər açır. Həmin vaxt insana elə gəlir ki, sanki dağlara qar yağıb. Elə ki çiçəklərin xoş ətri dağı, dərəni, yamacları bürüdü onu yığaraq gün düşməyən yerdə qurudurlar.

Südabə xanımın elimizin sədası dünyaya yayılan bu bitki haqqında söhbəti mənə yaxın günlərdə xarici mətbuatdan oxuduğum bu cümlələri xatırladı: ABŞ-da aparılan bir araşdırma nəticəsində məlum olub ki, uşqun bitkisində olan "parietin" adlı qırmızı piqmentlər xərçəng hüceyrələrinə inyeksiya edilib və təkcə iki gün içində xərçəng hüceyrələrinin yarısının öldüyü görülüb. Piqmentlərin modifikasiya edilmiş bir növü də şişlərin inkişafını azaldır. Araşdırmadan alınan bu nəticə yeni bir xərçəng dərmanının da xəbərçisidir. Mütəxəssislər uşqundan hazırlanmış dərmanın yaxın gələcəkdə xərçəngin müalicəsində istifadə olunacağını deyirlər. Belə ki, bitki haqqında əldə edilən yeniliklərin nəticələri böyük bir həyəcan yaradıb. İngiltərənin "Daily Express" qəzetində "Uşqun həyatımızı xilas edə bilər" başlığı ilə yayılan xəbər dünya mediasında böyük əks-səda doğurub.

Müsahibim onu da bildirir ki, bu şəfalı bitkidən qışda da istifadə etmək üçün turşu və mürəbbə hazırlayırlar. Çaşır, baldırğan kimi tutulan bu turşunun fərqi bircə ondadır ki, uşqunun qabığı təmiz soyulur, isti suda pörtlədilmir, çiy şəkildə duza qoyulur. Bir gün iri ləyəndə duza yatırıldıqdan sonra laylay bankaya yığılır, üzərinə qaynadılıb soyudulmuş duzlu su tökülür.

Bu əvəzsiz bitkinin mürəbbəsini də hazırladığını deyən müsahibim bildirir ki, mürəbbə üçün isə kövrək özəklər qabığı soyularaq balaca-balaca doğranır. 1 kiloqram uşqun üçün, təxminən, 1,5 kiloqram şəkər tozu götürülür, 3-5 stəkan suda qarışdırılaraq şirə hazırlanır. Qaynayan şirəyə uşqun əlavə edilir və bir gün şirə çəksin deyə, hazırlanan şirədə qalır. Səhəri gün ərik mürəbbəsində olduğu kimi qaynadılaraq bişirilir. Mürəbbədən, əsasən, ağır soyuqdəymələr zamanı istifadə edilir. Adətən, mürəbbə ilə çay içəndə insan tez-tez susuzlayır. Amma uşqun mürəbbəsi tam əksinə, susuzluğu azaldır. Nənəm deyərdi ki, bu torpaq Allahın bizlərə bəxş etdiyi ehsandır. Bu torpaqda bitən bitkilərin əvəzi yoxdur. Bu nemətləri Tanrı torpağımıza bəxş edib. Əcdadlarımız onlardan yüz illərboyu həm dərman vasitəsi, həm də qida kimi istifadə ediblər. Biz də bu torpaqda boy göstərən yüzlərlə bitkidən faydalanmışıq, onların kökünün kəsilməyinə imkan verməmişik. Əmanət bilmişik onları. Siz də elə bilin, yararlanın, amma bunu elə edin ki, onların kökü kəsilməsin. Mən də onun bu sözlərinə əməl etməyi həmişə bitki toplayanlara məsləhət görürəm. Deyirəm ki, bitkilərin yığılma qaydasını düzgün yerinə yetirin, qoy onların kökü kəsilməsin. Axı bu dağlarda bitən bitkilər elə zamanlar olub ki, elimizin insanlarını aclıqdan da qoruyub. İnsanlara şəfa verib. Şükür Allaha, bu gün yurdumuzda sülh və əminamanlıqdı. Hər tərəf, dükan, bazar cürbəcür nemətlərlə dolub daşır. Amma mən deyərdim ki, ilin bu vaxtında bir boşqab qovurmalı cacıq bir şiş kababdan daha dadlı gəlir insana.

Südabə xalanı dinlədikcə düşünürəm ki, dünya xəritəsində kiçik bir nöqtə kimi görünən torpağımızda min bir dərdin dərmanı olan, vitaminlərlə zəngin bitkilərin yetişməsi heç də təsadüfi deyil, çünki elə dünyanın yaradılışı da buradan başlayıb.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Tələbələrlə onlayn görüş keçirilib



***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən hamiliyə götürülmüş Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının tələbələri ilə onlayn görüş təşkil olunub.***

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası diqqətdə saxlanılıb, ötən müddətdə hami təşkilatla universitet arasında mütəmadi görüşlər keçirilib. Vurğulanıb ki, tələbələr ötən ildən etibarən ədliyyə orqanlarında "Ədliyyə könüllüləri" proqramı istiqamətində həyata keçirilən layihələrdə yaxından iştirak edirlər. Bugünkü onlayn görüşün də əsas məqsədi könüllü tələbələrin ədliyyə sahəsindəki bilik və bacarıqlarını daha da artırmaq, təkmilləşdirməkdən ibarətdir.

Görüş zamanı tələbələrə nazirliyin əməkdaşları tərəfindən probasiya sahəsi üzrə müasir elektron izlənmə nəzarət sistemi barədə geniş məlumat verilib, elektron nəzarət sisteminin istifadə qaydaları izah edilib. Tələbələr məhkumlar üzərində tətbiq olunan elektron nəzarət vasitəsilə tanış olublar.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, tələbələri maraqlandıran suallar cavablandırılıb. Qeyd olunub ki, onlayn tədbirlər xüsusi karantin rejimi müddətində davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən muxtar respublika ərazisində yayılan nadir və nəsli kəsilmək üzrə olan vəhşi heyvan növlərinin aşkar edilməsi məqsədilə mütəmadi olaraq monitorinqlər aparılır.*

## Naxçıvanda bəbir balalarının yeni görüntüsü əldə olunub



Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında Soyuqdağ ərazisində ötən il quraşdırılan foto və videoçəkiliş qurğuları vasitəsilə dünyaya gəlmiş iki bəbir balası qeydə alınıb. Bu günlərdə əməkdaşlar tərəfindən ərazidə keçirilən monitorinq zamanı həmin bəbir balalarının yeni görüntüsü əldə edilib. Biologiya üzrə elmlər doktoru İsmayıl Məmmədovun sözlərinə görə, həmin körpə bəbir balaları artıq böyüyüb və sərbəst həyata başlamağa hazırdırlar.

Qeyd edək ki, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq (İDEA) və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun dəstəyi ilə muxtar respublika ərazisində quraşdırılan xüsusi qurğularla heyvanların yaşam tərzinə müdaxilə etmədən onların şəkil və videogörüntüləri əldə edilir.

Haqqında bəhs etdiyimiz Qafqaz bəbiri də bütün dünyada qorunma statusuna malikdir və bu növün çox az sayda fərdləri vardır.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İnformasiya sorğusu hansı üsullarla icra olunur?*

**Cavab:** "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən informasiya sahibi sorğuda tələb olunan informasiyanı elektron informasiya daşıyıcısında yazmaqla və ya sorğuda göstərilən elektron poçt ünvanı üzrə göndərməklə, sənədin surətini və ya sənəddən çıxarışı sorğuçuya bilavasitə təqdim etməklə və ya onun poçt ünvanına göndərməklə, telefaksla, şifahi formada, informasiya ilə tanış olmaq üçün ayrılmış yerə girməyə icazə verməklə, informasiya daşıyıcısının növünü nəzərə almaqla digər üsullarla icra edir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***


### Elan

"Babək Sirab" ASC-nin rəhbərliyi səhmdarların nəzərinə çatdırır ki, 13 iyul 2020-ci il tarixdə saat $11^{00}$-da cəmiyyətin inzibati binasının iclas zalında səhmdarların yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Görülən işlərin illik hesabatı*

*2. Görüləcək işlər barədə.*

### İtmişdir

Şərur rayon Mahmudkəndində yaşamış İmanova Fatma Həbib qızının adına olan JN-$20^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Mahmudkəndində yaşamış İmanova Fatma Həbib qızının adına olan JN-$20^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Rəhimova Əzimə Qadir qızının adına olan 0200733922 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Abbasov Nadir Sabir oğlu və Qarayev Əbülfəz Həsən oğlunun adına pay mülkiyyətində olan torpağın 2927 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Ramazanov Nəriman Rafiq oğlunun adına olan 0200447912 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 354